*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2025, № 1* *ISSN: 2663-4406*
*Səhifə: 61-66* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2025.1.61*

# Cümhuriyyət dövrü Azərbaycan ədəbiyyatına elmi-nəzəri baxış

**Elməddin Quliyev**
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, doktorant
E-mail: el-84@list.ru
ORCID: 0009-0003-4060-452X

**Annotasiya**. Sözügedən məqalədə Cümhuriyyət dövrü Azərbaycan ədəbi-mədəni mühitinin təhlili aparılmışdır. Burada göstərilir ki, bu dövr ədəbiyyat Azərbaycan ədəbi-mədəni mühitinin oyanış, təşəkkül mərhələsini təşkil edir. Məqalədə həmçinin o da qeyd edilir ki, milli məktəblərin, kitabxanaların, muzeylərin açılışı, milli dərsliklərin yazılması, görülən işlər bütövlükdə ədəbi-bədii prosesdən yan keçə bilməzdi.

Məqalədə Cümhuriyyət dövrü mətbuatında dərc olunan ədib, publisist və siyasi düşüncə adamlarından, xüsusilə Məhəmməd Əmin Rəsulzadə, Seyid Hüseyn Sadıq (Kazımoğlu), Mirzə Bala Məhəmmədzadə, Əbdül Vahab Məhəmmədzadə, Üzeyir bəy Hacıbəyli, Adil xan Ziyadxan, Əli Abbas Müznib, Abdulla Şaiq, Yusif Vəzir Çəmənzəminli, Yusif Qasımov, Fərhad Ağazadə və digər tanınmış ziyalıların elmi, ədəbi-tənqidi məqalələrində, publisistik yazılarında, icmallarda, keçirilən konfranslarda dövrün ədəbiyyat məsələləri nəzərdən keçirilmiş, qaranlıq və mübahisəli məqamlara qismən aydınlıq gətirilmiş, ciddi elmi-nəzəri problemlərə toxunulmuş, ədəbiyyat tarixinə aid mülahizələr sərgilənmiş, ayrı-ayrı poeziya nümunələri, nəsr və dram əsərlərinin bədii-estetik məziyyətləri dəyərləndirilmiş və ümumilikdə dövrün problematik ədəbi mövzuları gündəmə çıxarılmışdır.

**Açar sözlər:** Azərbaycan cümhuriyyəti, ədəbiyyat məsələləri, elmi-nəzəri, ədəbi-tənqid, milli ədəbiyyat, Məhəmməd Əmin Rəsulzadə, Kazımoğlu

**Məqalə tarixçəsi:** göndərilib – 10.02.2025; qəbul edilib – 27.02.2025

# Scientific and theoretical view into Azerbaijani literature in the period of the Republic

**Elmaddin Guliyev**
Institute of Manuscripts named after Mahammad Fuzuli of ANAS, Doctoral Student
E-mail: el-84@list.ru
ORCID: 0009-0003-4060-452X

**Abstract.** The article in question analyzes the literary and cultural environment of Azerbaijan during the Republic. It is shown here that this period of literature constitutes the awakening and formation stage of the literary and cultural environment of Azerbaijan. The article also notes that the opening of national schools, libraries, museums, writing of national textbooks, and the work done as a whole could not bypass the literary and artistic process.

The article examines the literary issues of the period in scientific, literary-critical articles, journalistic writings, reviews, and conferences of prominent intellectuals, especially Muhammad Amin Rasulzadeh, Seyid Huseyn Sadig (Kazimoglu), Mirza Bala Muhammadzadeh, Abdul Vahab Muhammadzadeh, Uzeyir bey Hajibeyli, Adil khan Ziyadkhan, Ali Abbas Muznib, Abdulla Shaig, Yusif Vazir Chamanzaminli, Yusif Gasimov, Farhad Agazadeh, and other prominent intellectuals published in the press of the Republic, partially clarifying obscure and controversial points, touching upon serious scientific-theoretical problems,

presenting considerations related to the history of literature, evaluating the artistic-aesthetic merits of individual poetry examples, prose, and drama works, and generally bringing to the agenda problematic literary topics of the period.
**Keywords:** Republic of Azerbaijan, literary issues, scientific-theoretical, literary-criticism, national literature, Mahammad Amin Rasulzadeh, Kazimoglu

**Article history:** received – 10.02.2025; accepted − 27.02.2025

## Giriş / *Introduction*

Cümhuriyyət dövrünü Azərbaycan ədəbi-mədəni mühitinin oyanış, təşəkkül mərhələsi adlandırsaq, yəqin ki, mövcud gerçəkliyi təhrif etmiş olmarıq. Mətbuat orqanlarının, xüsusilə milli qəzet və jurnalların sıx fəaliyyət göstərdiyi yaradıcılıq mühitində ədiblər, publisistlər, düşüncə adamları tərəfindən milli dil, milli ədəbiyyat məsələləri, onların nəzəri və təcrübi aspektləri bu və ya digər formada qabardılmış, həlli yönümündə müəyyən addımlar atılmışdır. Milli məktəblərin, kitabxanaların, muzeylərin açılışı istiqamətindəki təşəbbüslər, milli dərsliklərin hazırlanması, əlifba islahatı, mədəniyyət, incəsənət, teatr sahəsində görülən uğurlu işlər bütövlükdə ədəbi-bədii prosesdən yan keçə bilməzdi. Xalqı milli istiqlala, azad və müstəqil dövlət quruculuğuna doğru aparan yolda ədəbiyyatın, mətbuatın, mədəniyyətin, təhsilin mühüm əhəmiyyət kəsb etməsi danılmaz həqiqətlərdir. Cümhuriyyətin ideoloqlarından biri, Şurayi-milli rəisi Məhəmməd Əmin Rəsulzadə 1919-cu ildə nəşr olunan "İstiqlal" (1918 – 28 mayıs – 1919) məcmuəsində çap etdirdiyi "Azərbaycan Cümhuriyyəti" adlı məqaləsində milli dövlətçilik quruculuğunda ədəbiyyatın, mətbuatın, təhsilin milli şüurun oyanışına təsir imkanlarından, aparıcı mövqeyindən bəhs edərək yazırdı: "Evet, düha (dahi) Azərbaycan "Molyer"i Mirzə Fətəli Axundov mərhumla başlayan müasir ədəbiyyat həvəsi, Həsən bəy Məlikov mərhumun "Əkinçi" qəzetəsi ilə mətbuati-milliyyə təsisi və davamına həsr olunan əmək, Cəmiyyəti-Xeyriyyə binası üçün bundan qırx yıl öncəyə aid olan təşəbbüs, nəhayət milli ədəbiyyat, milli məktəb tələbləri... daha çarlıq zamanında məktəb və mədrəsə islahı yolunda təvalli edən o bitməz-tükənməz dəvalar başqa bir şey degil. Yalnız bir dəva idi: Hakimiyyəti-milliyyə dəvası" [5, s.11-12].

Milli hakimiyyət, müstəqil dövlət, azad cəmiyyət qurub-yaratmaq ideyası xalqın öncül ziyalılarının, ədəbiyyat və sənət adamlarının, mətbuat xadimlərinin hər zaman mübarizə konsepsiyası, fəaliyyət proqramı olmuşdur.

## Əsas hissə / *Main Part*

İctimai-siyasi xadim, ədib, mühərrir və publisist M.Ə.Rəsulzadə "Azərbaycan" qəzetinin 1919-cu il 8 nisan tarixli birinci səhifəsində çıxan "İran və biz" və 28 nisanda ikinci səhifəsində dərc edilən "Azərbaycan və İran" adlı məqalələrində qonşu ölkə ilə münasibətlərə ədəbi, mədəni, tarixi, siyasi konteksdə kompleks halda yanaşmış, bir sıra maraqlı mülahizələr irəli sürmüşdür.

Məlumdur ki, Cümhuriyyət hökuməti Gəncə xanı Cavad xanın nəticəsi, Moskva Universiteti Hüquq fakültəsinin məzunu, Rusiya İmperiyası I Dövlət Dumasının üzvü 1918-ci il noyabr-dekabr aylarında hərbi işlər üzrə müvəkkil, 1918-ci il dekabr ayından sonra isə Fətəli xan Xoyski kabinetində xarici işlər nazirinin müavini vəzifəsində çalışan İsmayıl xan Ziyadxanın rəhbərliyi ilə 1919-cu il aprel ayının əvvəllərində iki yaxın, qonşu ölkə arasında münasibətləri qaydaya salmaq üçün Tehrana nümayəndə heyəti göndərmişdir. Məqsəd yeni yaradılmış Azərbaycan Cümhuriyyəti ilə İran arasında ədəbi, mədəni, iqtisadi, siyasi əlaqələri yaxşılaşdırmaq və genişləndirməkdən ibarət idi. M.Ə.Rəsulzadənin "Azərbaycan" qəzetində çıxan "İran və biz" məqaləsində bir sıra məqamlara aydınlıq gətirərək bildirirdi ki, Cümhuriyyətimizin göndərdiyi nümayəndə heyəti iranlı mütəfəkkir arkadaşlarımız tərəfindən dost və qardaş bir millətin təmsilçiləri kimi qəbul olunacağına ümidvarıq.

Amma İranda səthi düşünən elə siyasi qüvvələr mövcud idi ki, Cümhuriyyətin yaranması onları çox narahat edirdi, "Azərbaycan" sözünün siyasi müstəviyə çıxarılmasından Tehran qəzetləri vasitəsilə tənqidlər yağdırır, küfr püskürürdülər. Belə bir gərgin zamanda M.Ə.Rəsulzadə iki ölkə arasındakı tarixi, mədəni, dini bağlara əsaslanaraq "*İranın səlaməti bizim üçün, bizim səlamətimiz İran üçün son dərəcədə mühümdür"* prinsipi ilə "Azərbaycan" sözünün mənşəyinə işıq salaraq bildirirdi ki, Qafqasiya Azərbaycanı qədim Aran, Şirvan və Muğanı özündə ehtiva edən, coğrafi istilahdan daha üstün qövmi bir məna daşıyır. Türkcənin bir qolu olan, Azərbaycan dilində danışan bu qövmün adı Aran, Şirvan, Muğanı deyil, məhz Azərbaycandır. Müəllifin təbirincə desək, XIX yüzilliyin 80-ci illərində Bakı, Gəncə, İrəvan quberniyalarından Sankt-Peterburq Universitetində təhsil alan tələbələr "Azərbaycan cəmiyyəti" yaratmışlar, "Azərbaycan gecəsi" adlı müsamirələr keçirmişdir.

İsmayıl xan Ziyadxanın başçılıq etdiyi nümayəndə heyəti İranın "Rəd" (göy gurultusu – *E.Q.*) qəzetinin məlumatına görə hicri-qəməri tarixi ilə cəmadiulsaninin (bu aya bəzi mənbələrdə "Cəmədiyulaxır" da deyilir – *E.Q.*) 25-də Bakı Konsulluğunun şöbə müdiri Həbibulla xan və şahzadə Hümayun Mirzə Qacarın müşayiəti ilə Tehran şəhərinə gəlmiş, Müqtədir əl Mülkün bağında qonaq olmuşlar.

M.Ə.Rəsulzadənin öncədən qeyd etdiyi kimi, Azərbaycan Cümhuriyyətinin nümayəndə heyəti qonşu ölkəyə gəldikdən sonra Tehran qəzetləri, xüsusilə "İran" qəzeti öncə vurğulanan "İran və biz" məqaləsinə mənfi münasibət bildirərək, Qafqasiya türklərinin yaratdığı cümhuriyyətə "Azərbaycan" adını verməyə haqqının olmadığını, ən qədim zamanlardan Azərbaycanın İranın bir əyaləti olduğunu qabardırdılar.

Məhəmməd Əmin bəy "Azərbaycan və İran" adlı məqaləsində "İran" qəzetinə cavab olaraq vurğulayır ki, dünyada Azərbaycan camaatı var. Onlara İranda Qafqaz türkləri deyilir. Bu türklərin ədəbiyyatına Azərbaycan ədəbiyyatı deyilir. Şairlər Azərbaycan dilində – şivəsində yazırlar. "*İrəvan, Gəncə və Bakı quberniyalarındakı "ətrak" (türklər) ilə Ərdəbil, Marağa, Xalxal, Təbriz və Qaracadağ mahallarındakı "ətrak"ın biri-birindən*" [4, s.2] fərqi yoxdur – deyərək, Azərbaycan Cümhuriyyətinin "xəyalpərvər" gənclərin uydurduğu ötəri bir isim deyil, Azərbaycan-türk xalqının yaratdığı real dövlət olduğunu Tehran mətbuatının sayıqlamalarına cavab olaraq qəti şəkildə bildirmişdir.

Məqalə müəllifi bir istilah, ad üzərində səmərəsiz söz güləşdirməkdənsə, məntiqsiz mülahizələr yürütməkdənsə, Azərbaycan xalqının ədəbiyyat, mədəniyyət tarixinə nəzər yetirməyi, qonşu, qardaş xalqların sevgisini qazanan klassiklərin ortaq, birləşdirici amillərini, dostluğu, qardaşlığı, barışı təbliğ edən əsərlərini mənəviyyat xəzinəsi olaraq dəyərləndirməyi, ədib və şairlərimizlə qürur duymağı tövsiyə edir.

M.Ə.Rəsulzadə "Azərbaycan" qəzetində dərc etdirdiyi "İran və biz" məqaləsində yazırdı: "*Azərbaycan ədəbiyyatının üstadi-əvvəli, şeyxüşşüəra Füzuli, bu türk Hafizi, bu gün Ərasın şimalından ziyadə cənubunda mərufdur.*

*Nəbati, Raci, Məhəmməd Bağır, Dilsuz, Ləli və sairə kibi Azərbaycan gülşəni-ədəbiyyatına başqa bir rəng və ruğən verən ədiblər İranın yetişdirmiş olduğu güllər, çiçəklərdir.*

*Qafqasiya Azərbaycanı İrandan aldığı borcu mümkün olduğu qədər iadə etməyə dəxi çalışmışdır.*

*Yeni Azərbaycan ədəbiyyatının bərəkətli səhnəsini təşkil edən Bakı mətbuatı heç bir zaman İrana yabançı qalmamışdır. Burada nəşr olunan mətbuati-mövqutə hər zaman İran qüssələri ilə qüssələnmiş, onun sevincləri ilə sevinmişdir. Bunun üçün də o, İranda rəğbət qazanmış, bilxassə Təbriz – Bakı mətbuatının ikinci mərkəzi-tövzisi olmuşdur. "Molla Nəsrəddin" məcmuəsinin müvəffəqiyyəti isə İranın yalnız türkcə danışan şəhərlərinə deyil, bütün mühüm mərkəzlərinə qədər şamil olmuşdur. Nəbati bizdə olduğu qədər, Seyid Əzim də İranda mərufdur. Biz Ləlini*

*bildiyimizdən ziyadə, İran mərhum Sabiri tanır, "Hop-hop"un "Mən deyən oldu, sən deyən"ini hamı çocuqlar əzbərdən oxur*" [6].

M.Ə.Rəsulzadə İran-Azərbaycan siyasi münasibətlərinin mülayimləşməsi istiqamətində ədəbiyyat amilinə, ortaq tarixi qatlara, mədəni-mənəvi ənənələrə istinad etməklə hər iki ölkənin xalqları tərəfindən sevilən klassik sənətkarların nümunəsində istimai-mənəvi iqlimin saflaşması, etimad mühitinin formalaşması yönümündə ədəbiyyatın zəngin potensialını, önəmini və əhəmiyyətini xüsusi vurğulayırdı.

Ölkələrarası əlaqələrdə ədəbiyyatın öncül mövqeyini təqdir edən dövlət xadimlərindən biri də Gəncə xanı Cavad xanın nəticəsi, Moskva Dövlət Universiteti Hüquq fakültəsinin məzunu, türk, fars, rus, ingilis və fransız dillərini mükəmməl bilən Cümhuriyyət hökumətinin Xariciyyə nazirinin müavini və nazir vəzifəsini icra edən Adil xan Ziyadxan idi. Onun "Azərbaycan" qəzetinin 1919-cu il mart, aprel və may tarixli nömrələrinin on sayında dərc etdirdiyi "Azərbaycan haqqında tarixi, ədəbi və siyasi məlumat" adlı silsilə məqaləsi dövrün aktual problemlərinə həsr olunmuş, Xalq Cümhuriyyətini Avropa ölkələrində daha yaxşı tanıtmaq və təbliğ etmək məqsədilə yazılmışdır. A.Ziyadxanın eyniadlı məqaləsi 1919-cu ildə (h.q. 1338) Hökumət mətbəəsində kitab formatında Azərbaycan və fransız dillərində nəşr edilərək Paris şəhərinə, Azərbaycan Nümayəndə heyətinin ünvanına göndərilmişdir. Müəllifin "Azərbaycan haqqında tarixi, ədəbi və siyasi məlumat" (qısaca "Azərbaycan" – *E.Q.*) adlı irihəcmli məqaləsində ölkənin adı, tarixi ilə yanaşı ədəbiyyatı haqqında da geniş elmi məlumatlar öz əksini tapmışdır.

Adil xan Ziyadxan istiqlal beşiyi olan Gəncənin ədiblərindən söz açarkən öncə filosof-şair Şeyx Nizamini təqdim edir. Onun "Leyli və Məcnun" əsərinin əvvəllər İngiltərədə çap olunduğunu, bəyənildiyini və bu əsərin mütəxəssislər tərəfindən U.Şekspirin "Romeo və Cülyetta" əsərinə bərabər tutulduğunu vurğulamışdır. Eləcə də "Qafqazın ruslar tərəfindən fəthi" əsərinin müəllifi, professor Vselovskinin yazdığına əsasən, Avropa şairi Şiller "Trondot" adlı dramını yazarkən Şeyx Nizaminin "Həft peykər" (Yeddi gözəl") poemasından bəhrələnmişdir.

A.Ziyadxan Azərbaycan ədəbiyyatının klassiklərindən bəhs edərkən Gəncəli Məhsəti xanım, Əbilüla Gəncəvi, Xaqani Şirvani, Fələki Şirvani, Mirzə Şəfi Gəncəvi, Mirzə Məhəmmədxan oğlu Abbasqulu ağa, Molla Pənah Vaqif, Qasım bəy Zakir, Xurşidbanu bəyim Natəvan, Hacı Əbdürrəhim Qüdsi, Mirzə Məhəmməd Tağı Sidqi, Məhəmmədhüseyn xan Müştaq, İsmayıl bəy Nakam, Mirzə Fətəli Axundzadə, Mirzə Ələkbər Sabir və b. şair və ədiblərin adlarını ehtiramla çəkmiş, ədəbiyyat tarixində göstərdikləri xidmətləri və tutduqları yerləri haqqında yığcam məlumat vermişdir. Müəllif Cümhuriyyət dövründə fəaliyyət göstərən ədəbi qüvvələr haqqında yazırdı: "*Əlyövm (bu gün) Azərbaycan Cümhuriyyətində və hali həyatda olan ədib və şairlərimiz bunlardır: Bakıda Məhəmməd Əmin Rəsulzadə, Mirzə Əbdülxalıq Cənnəti, Mirzə Əbdülxalıq Yusif, Gəncədə Mirzə Əli Məhəmmədzadə Nizami, Cavad Axundzadə, Şirvanda Məhəmməd Hadi Əbdülsəlimzadə, Qarabağda Əhməd bəy Ağaoğlu, Firidun bəy Köçərli, İbrahim Tahir, Salyanda Əli bəy Hüseynzadə bu pak vücud məşhurdur. Şairliyi ilə, həm də filosof, müvərrix, rəssam, mühərrirdir. Qazaxda məşhurdur Abbas ağa Nazir, Şəkidə məşhurdur dərin biliyi, ciddi və məzhəkəli şeirləri ilə Səlman Məhəmmədəmin oğlu Mümtaz, Naxçıvanda Hüseyn Cavid Rasizadə, Borçalıda Mirzə Abdulla Talıbzadə Şaiq.*

*...Burada qeyd etməliyəm ki, Azərbaycan türk müəlliflərinin türk lisanında yazdıqları müxtəlif əsərlərindən savayı bir çoxları da fars və ərəb lisanında yazılmışdır. Bunun da səbəbi türk ədəbiyyatının fars və ərəb mədəniyyətinin təsiri altında qalması olmuşdur* [1, s.2].

Əlbəttə, Adil xan Ziyadxan Azərbaycanın istər klassik, istərsə də Cümhuriyyət dövrü ədib və şairlərinin siyahısını tərtib etmək niyyətində olmamışdır. Ona görə də yazarların siyahısındakı natamamlıq təəccüb və rahatsızlıq doğurmamalıdır. Onun sonradan kitaba çevrilən genişhəcmli məqaləsində ədəbiyyat məsələlərinə, xüsusilə ədəbiyyat tarixinə və ədəbi şəxsiyyətlərə yetərincə yer ayırması hüquqşünas və siyasət adamı olaraq A.Ziyadxanın yüksək səviyyəli dünyagörüşündən,

bilgisindən və erudisiyasından xəbər verir. Müəllif "Azərbaycan" məqaləsində xalq ədəbiyyatından, Azərbaycan folklorundan nümunələr təqdim edərək mövzuya bütövlükdə sevgi və öygü ilə yanaşmışdır.

Adil xan Ziyadxanın "Azərbaycan haqqında tarixi, ədəbi və siyasi məlumat" adlı məqaləsində Azərbaycan ədəbiyyatının xaricdə, xüsusilə Avropa məkanında tanıdılması, təbliğ olunması istiqamətində ilk kövrək təşəbbüslərdən olsa da, Cümhuriyyətin imicinə müsbət dividendlər gətirməklə yanaşı, mühüm əhəmiyyət kəsb edirdi.

Cümhuriyyət dövrü ədəbi tənqidinin ən qabaqcıl və fəal nümayəndələrindən biri "Kazımoğlu" təxəllüsü ilə dövri mətbuatda məqalələr dərc etdirən tanınmış ədəbiyyatşünas, yazıçı Seyid Hüseyn Sadıq idi. O gənc dramaturq Cəfər Cabbarlının "Ədirnə fəthi" adlı əsərinin tamaşasına 1919-cu il 10 avqust tarixində Hökumət Teartosunda baxdıqdan sonra "Açıq tənqid" rubrikası altında "Ədirnə fəthi" adlı silsilə məqaləsində öncə "münəqqidlərə" (tənqidçilərə – *E.Q.*) yazarların və dünya ədəbiyyatşünaslarının fərqli münasibətlərini sərgiləyir, ədəbiyyatda tənqidin rolunu, yerini və əhəmiyyətini qeyd edir. Kazımoğlunun təbirincə desək: "*Mümafihə (öncə deyildiyi kimi), tənqid nə qədər çəkilməz bir şey olsa da, yenə olmalıdır və olacaqdır. Ən çox tənqiddən qorxan, onu görmək istəməyən mühərrirlər belə tənqidçilərin o acı və zəhralud (zəhərli – E.Q.) qələmlərindən yaxalarını qurtaramamışlardır. Bununla bərabər, böyük ədib və şairlər də iqtidarını, dühasını, qüvvətini, fikrini, fəlsəfəsini bu zəhralud qələmlər ortaya çıxarmışdır. Bu halları nəzərə alaraq insan bəzən yazmaq istəmiyor, əksinə mövqeyini sarsıtmaq, arkadaşlarını, qələm arkadaşlarını kəndisindən rəncidə etməmək, ülfət və məvəddətini (sevgisini – E.Q.) qırmamaq üçün sükuti iltizamla ağrımayan başını ağrıtmaq istəməyor. Tənqidin ən münasib yolu bu idi ki, münəqqidi kimsə tanımaya idi*" [2, s.4].

Kazımoğlu bu yığcam cümlələrdə tənqidçinin çətin, ağır, əzablı durumundan, onun ədəbi mühitdə sevilmədiyindən bəhs etməklə yanaşı, tənqidin hətta böyük ədib, şairlər və dramaturqlara şamil olunan faydasından, ədəbiyyata təsir imkanlarından, sənətin məziyyətlərinə gətirdiyi müstəsna özəlliklərdən və polifoniklikdən bəhs etmişdir. Ədəbi tənqid missiyasının icrasında məxfiliyi prioritet sayan müəllif ədəbi-bədii yazılarını Seyid Hüseyn adı ilə çap etdirsə də, "Açıq tənqid"i məqalələrinin imza yerində "Kazımoğlu" adını yazmasının örtülü məqamları təqdim olunan istinaddan da bəlli olur. Ən ciddi konspirasiyaya baxmayaraq, Cümhuriyyət dövrünün ədəbi mühitində açıq tənqidi məqalələr yazan "Kazımoğlu" imzasının Seyid Hüseyn Sadığa aid olduğu çoxlarına, o cümlədən 20 yaşlı gənc dramaturq Cəfər Cabbarzadəyə də məlum idi.

Kazımoğlunun tənqidi açıq olduğu qədər də, səmimi, qərəzçilikdən, paxıllıqdan, "yıxıb-sürümək" xislətindən uzaq, böyük ədəbiyyat, ümidverici gənc istedad naminə gələcəyə hesablanmış düşüncələrdir.

O, altı pərdəli "Ədirnə fəthi"nin hər bir pərdə üzrə qısa məzmununu ikinci məqaləsində oxuculara təqdim etmiş, Cəfər Cabbarzadənin "məsləki-ədibə"sindən, yəni hansı ədəbi cərəyana mənsub olduğundan və əsərin həmin meyarlara uyğunluğundan söz açaraq "Ədirnə fəthi"ni böyük türk yazarı, Türkiyədə romantizm cərəyanının banilərindən biri Əbdülhəq Hamid bəyin "Doktəri-Hindu" ("Hind qızı") əsəri ilə müqayisəli təhlil edir və tənqidi mülahizələrini açıq yazır: "*Cəfər əfəndinin "Ədirnə fəthi" əsərini müəyyən etmək bir qədər gücdür. Zira, o nə romantik, nə də həyatın üryan tamaşasından zövq alan realistdir. Olsa-olsa "Ədirnə fəthi" fatorealist (fotorealizm – E.Q.) bir əsərdir. Daha doğrusu bir az fatorealist kibi görünür. İştə biz də bu nöqteyi-nəzərdən "Ədirnə fəthi"nə baxmaq istəyoruz*" [3, s.2-3].

## Nəticə / *Conclusion*

Kazımoğlunun fikrincə, gənc dramaturq Cəfər Cabbarzadənin "Ədirnə fəthi" tarixi dramı Balkan savaşı dövründə yerli qəzetələrdə müharibə ilə bağlı dərc edilmiş məlumatlar toplusunun bir-birinə bənd edilmiş hissələrindən ibarətdir. Onun qənaətinə görə dramaturqun bu səhnə əsərində yeganə üstün özəlliyi tamaşaçıları cəlb etmək məziyyətidir.

Şübhəsiz ki, tənqidçi Kazımoğlu gənc dramaturqun əsərini ədəbiyyatın yüksək tələbləri səviyyəsindən müşahidə edərək filoloji düşüncənin elmi-nəzəri meyarlarına cavab vermədiyini vurğulamaqla yazarların mövzulara məsuliyyət hissi ilə yanaşmalarını, bədii-estetik keyfiyyət yüksəlişini tələb və arzu edirdi.

**Ədəbiyyat / *References***


1. Adil xan Ziyadxan. Azərbaycan haqqında tarixi, ədəbi və siyasi məlumat. – Bakı: “Azərbaycan” qəz., 1919, 8 nisan, № 152.
2. Kazımoğlu. Açıq tənqid. Ədirnə fəthi. – Bakı: “Azərbaycan” qəz., 1919, 14 avqust, № 251.
3. Kazımoğlu. Açıq tənqid. Ədirnə fəthi. – Bakı: “Azərbaycan” qəz., 1919, 14 avqust, № 253.
4. Rəsulzadə M.Ə. Azərbaycan və İran. – Bakı: “Azərbaycan” qəz., 1919, 28 nisan, № 168.
5. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. – Bakı: “İstiqlal məcmuəsi”, 1919.
6. Rəsulzadə M.Ə. İran və biz. – Bakı: “Azərbaycan” qəz., 1919, 8 nisan (aprel), № 152.


## Научно-теоретический взгляд на азербайджанскую литературу республиканского периода


**Эльмаддин Гулиев**
Институт Рукописей имени Мухаммеда Физули НАНА
E-mail: el-84@list.ru
ORCID: 0009-0003-4060-452X



**Резюме.** В статье анализируется литературно-культурная среда Азербайджана в период Республики. Здесь показано, что литература этого периода представляет собой этап пробуждения и становления азербайджанской литературно-культурной среды. В статье также отмечается, что открытие национальных школ, библиотек, музеев, написание национальных учебников и вся проделанная работа в целом не могли обойти стороной литературно-художественный процесс.
В статье рассматриваются литературные, публицистические и политические мыслители, публиковавшиеся в прессе периода Республики, в частности Мухаммед Эмин Расулзаде, Сеид Гусейн Садык (Казымоглу), Мирза Бала Мухаммедзаде, Абдул Вахаб Мухаммедзаде, Узеир бек Гаджибейли, Адиль хан Зиядхан, Али Аббас Музниб, Абдулла Шаиг, Юсиф Везир Чеменземинли. В научных, литературно-критических статьях, публицистических работах, обзорах и конференциях Юсифа Гасымова, Фархада Агазаде и других известных интеллектуалов были рассмотрены неясные и спорные литературные проблемы того периода. Были частично разъяснены некоторые моменты, затронуты серьезные научно-теоретические проблемы. Были представлены соображения, связанные с историей литературы, дана оценка художественно-эстетическим достоинствам отдельных образцов поэзии, прозаических и драматургических произведений. А в целом были вынесены на повестку дня проблемные литературные темы этого периода.


**Ключевые слова:** Азербайджанская Республика, литературные проблемы, научно-теоретическая, литературная критика, национальная литература, Мухаммед Эмин Расулзаде, Казымоглу